# “İnsanlarla səmimi ünsiyyət qurduq”

## Şahin İsmayılov gənclərin parlamentdə təmsil olunmaq hüququ əldə edə bilməsini dövlət gənclər siyasətinin uğuru və gəncliyə verilən böyük önəmin göstəricisi kimi qiymətləndirir

**Şahin İsmayılovun adı və soyadı Azərbaycanın aktiv gəncliyinə, eləcə də ictimai-siyasi proseslərlə bağlılığı olan hər kəsə yaxşı tanışdır. İlk növbədə o, ölkə üzrə 30 min üzvü olan və 109 tələbə-gənclər təşkilatını öz ətrafında birləşdirən Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) sədridir. 2009-cu ildən indiyə qədər sözügedən ittifaqa rəhbərlik edir. Bununla yanaşı, o, 2011-ci ildə bir qrup gənclə birlikdə Prezident İlham Əliyevin qəbulunda iştirak edən, tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılması və fəallığının artırılması istiqamətində bir sıra təkliflər səsləndirən gəncdir. Elə həmin ilin aprel-iyun aylarında Ş.İsmayılov Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin rəhbərliyi altında formalaşdırılmış ”Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə” dövlət proqramının hazırlanması üzrə işçi qrupun üzvü olub. Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə 23 aprel 2012-ci il tarixində Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının, 4 aprel 2013-cü il tarixində isə Prezident yanında Gənclər Fondunun Müşahidə Şurasının üzvü seçilib. Eyni zamanda o, Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının İdarə Heyətinin də üzvüdür. Noyabrın 1-də V çağırış Milli Məclisə keçirilən seçkilərdə isə hakim partiya tərəfindən 81 saylı Beyləqan seçki dairəsindən Ş.İsmayılovun deputatlığa namizədliyi irəli sürülüb. Mərkəzi Seçki Komissiyasının seçkidən sonra açıqladığı nəticələrə görə sözügedən seçki dairəsindən məhz o qalib elan olunub. Beləliklə, ”Kaspi”nin budəfəki suallarını ATGTİ-nin sədri Ş.İsmayılov cavablandırır.**



**- Şahin müəllim, Siz ilk dəfə millət vəkilliyinə namizəd olmusunuz və rəsmi nəticələrə görə, artıq qaliblər sırasındasınız. Hansı hissləri keçirirsiniz?**

- Mərkəzi Seçki Komissiyasının elan etdiyi seçki nəticələrinə görə, Milli Məclisdə təmsil olunacaq şəxslərdən biri də mənəm. Bu barədə xəbəri eşidəndən indiyə kimi qarışıq hisslər keçirirəm. Təbii ki, həmin hisslər sırasında məsuliyyət, həm Yeni Azərbaycan Partiyasının, həm də Beyləqan seçicilərinin etimadını, həmçinin bütövlükdə cəmiyyətin gözləntilərini doğrultmaq daha çox üstünlük təşkil edir. Eyni zamanda, qalib gəldiyim üçün sevinc hissi də keçirirəm. Bunların hamısı insanda qarışıq duyğu yaradır. Azərbaycan cəmiyyətində mənim və ya digər bir gəncin qanunverici orqanda təmsil olunmaq hüququ əldə edə bilməsi ölkədə dövlət gənclər siyasətinin uğurunun, gəncliyə verilən böyük önəmin göstəricisidir. Çalışacağam ki, üzərimə qoyulan məsuliyyəti, mənə göstərilən etimadı layiqincə doğruldum.

**- Deputatlığa namizədliyiniz YAP tərəfindən irəli sürülüb. Hakim partiya tərəfindən dəstəklənməyiniz seçkidə qalib gələcəyiniz barədə əminlik yaradırdımı?**

- Seçki bir marafondur. Keçmiş fəaliyyətində seçicilərin etimadını doğruldan siyasi qüvvələr, yaxud da seçki dövründə insanları inandırmağı bacaran şəxslər bu marafondan qalib çıxırlar. Yeni Azərbaycan Partiyası da yarandığı gündən bu günə kimi - istər ümummilli lider Heydər Əliyevin, istərsə də ölkə başçısı İlham Əliyevin sədrliyi dövründə Azərbaycan xalqının etimadını hər zaman doğruldub. Ona görə də namizədliyimin hakim partiya tərəfindən irəli sürülməsi gələcək qələbəmin təməlini qoymuşdu. Lakin bununla belə, namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən namizədlərin hər birinin üzərinə ciddi məsuliyyət, seçicilərlə təmasda olmaq, onların səslərini qazanmaq üçün əməli fəaliyyət göstərmək kimi vəzifələr düşürdü. Həm hakim partiya tərəfindən indiyə qədər həyata keçirilən tədbirlər, görülən işlər, həm də namizədin şəxsi platforması seçicilərə düzgün şəkildə çatdırılmalı, onların dəstəyini qazanmaq üçün uğurlu fəaliyyət ortaya qoyulmalı idi. Hər kəs kimi mən də seçki marafonunda məhz bu cür fəaliyyət ortaya qoymağa çalışdım. Hakim partiya tərəfindən namizədliyimin irəli sürülməsinin qalib gələcəyimə əminlik yaratmasına gəlincə, buna əminlik deyil, bir qədər rahat şəkildə təbliğat-təşviqata başlamaq deyərdim. Buna da səbəb bir qədər əvvəl qeyd etdiyim kimi, Yeni Azərbaycan Partiyasının hər iki sədrinin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən hərtərəfli islahatlar, neft və qeyri-neft sektorunun inkişafı, ümumilikdə iqtisadiyyatın intibahı, ölkəmizin Cənubi Qafqazın lider dövlətinə çevrilməsi kimi faktlar idi. Mənsub olduğum hakim partiyanın Azərbaycanın inkişafı naminə gördüyü işlər bu mənada biz namizədlərin seçkiqabağı işini nisbətən rahatlaşdırırdı. Dövlət başçısının rəhbərlik etdiyi böyük bir siyasi qüvvə tərəfindən dəstəklənməyimiz qələbəmizə inamımızı artırırdı. Bütün bunlara rəğmən yenə də həyəcanla seçkinin sonunu, seçicilərin öz iradəsini hansı formada ifadə etmələrinin nəticəsini gözləyirdik.

**- Seçki prosesində təbliğat-təşviqatınızı əsasən necə qururdunuz?**

- Bizim dairənin əhatə etdiyi yaşayış məntəqələrində, o cümlədən kənd və qəsəbələrin əksəriyyətində görüşlər keçirdik. Beyləqan rayonunun elə yaşayış məntəqəsi qalmadı ki, bizim orada görüşümüz olmasın. Hətta elə qəsəbə var idi ki, biz orada iki dəfə görüş keçirmişdik. Qeyri-təvazökarlıq kimi qəbul edilməsin, hətta deyərdim ki, normadan artıq şəkildə insanlarla görüşlər keçirib onlarla səmimi fikir mübadiləsi apardıq, onları dinlədik. Bütün enerjimizi, fikrimizi görəcəyimiz işlərə yönəltdik. Ölkə başçısı İlham Əliyevin daxili və xarici siyasəti, qarşıda bizi gözləyən vəzifələr, bundan irəli gələrək görüləcək işlər barədə danışdıq. İnsanlarla olduqca səmimi ünsiyyət qurduq. Onu da qeyd edim ki, keçirilən görüşlərin heç birində digər namizədlər barədə hər hansı fikir bildirmədik. Onlar barədə artıq-əskik fikirlər söyləmədik, şəxsi işlərinə qarışmadıq, bunlar üzərindən öz təbliğatımızı aparmağa cəhd göstərmədik. Hətta digər namizədlərin mənim barəmdə qeyri-obyektiv fikirlər səsləndirməsinə, bununla da müəyyən qanun pozuntularına yol vermələrinə də ciddi reaksiya vermədik. Fikrimizi yalnız seçkiyə, öz platformamızı təqdim etməyə yönəltdik, insanları düşündürən sualları cavablandırdıq.

**Bizim dairənin əhatə etdiyi yaşayış məntəqələrində, o cümlədən kənd və qəsəbələrin əksəriyyətində görüşlər keçirdik. Beyləqan rayonunun elə yaşayış məntəqəsi qalmadı ki, bizim orada görüşümüz olmasın. Hətta elə qəsəbə var idi ki, biz orada iki dəfə görüş keçirmişdik. Qeyri-təvazökarlıq kimi qəbul edilməsin, hətta deyərdim ki, normadan artıq şəkildə insanlarla görüşlər keçirib onlarla səmimi fikir mübadiləsi apardıq, onları dinlədik. Bütün enerjimizi, fikrimizi görəcəyimiz işlərə yönəltdik.**

**- Şahin İsmayılov Beyləqan seçicisinə nə dərəcədə yaxın və tanış adam idi?**

- Beyləqan rayonunun 100 minə yaxın əhalisi, namizədliyim irəli sürülən dairədə isə 39 minə yaxın seçici var. Seçki prosesində onların hamısı ilə görüşə bilməsək də, bir qismi ilə təmaslarımız oldu. Rayon yerinin qəribə bir özəlliyi var. Media olmadan da insanlar hər hansı bir şəxs barədə ağızdan-ağıza xəbər tuta, onun barəsində məlumata sahib ola bilirlər. Seçicilərlə görüşdə mən bunun bir daha şahidi oldum. Onlar mənim bu günə qədər olan fəaliyyətim barədə ətraflı məlumata malik idilər. Bunun bir səbəbi mənim deputatlığa namizədliyim, gənclər təşkilatı rəhbəri kimi fəaliyyətimlə əlaqədar idisə, digər bir səbəbi yaxın qohumlarımdan bəzilərinin Beyləqanda yaşaması, onların da bu rayonda tanınması ilə əlaqədar idi. Bu mənada mən Beyləqan seçicisinə yad adam sayılmırdım. Görüşlərim zamanı da onlarda özümə qarşı bir doğmalıq, gənc olaraq gələcəyimə ümidli baxış hiss etdim. Bu doğmalıq və ölkə başçısının siyasi kursuna verilən böyük dəstək də məni onların vəkili etdi.

**- Beyləqanın yaşayış məntəqələrində seçicilərinizlə keçirdiyiniz görüşlərdə insanlar əsasən hansı problemləri qaldırır, nələri diqqətə çatdırır, Sizdən nə gözləyirdilər?**

- Seçicilərimlə keçirdiyim 28 görüşdə təxminən 13 mindən artıq insan iştirak etmişdi. Hər bir görüşümüz də əhalinin sayından asılı olaraq təxminən 1-2 saat arası çəkirdi. Təbii ki, bu görüşlərdə bir sıra problemlər də qaldırılır, həllinin tezləşdirilməsi vacib olan məsələlər də dilə gətirilirdi. Bu problemlər arasında gündəlik məişət qayğıları, yaxud gələcəkdə həllini görəcək istədikləri məsələlər də var idi. Bütün bunlar barədə ətraflı fikir mübadiləsi aparmaq imkanımız oldu. Elə məsələlər var idi ki, onların həlli dövlət proqramlarında nəzərdə tutulub və bunun üçün, sadəcə, zaman gərəkdir. Biz bu barədə seçicilərə məlumat verirdik. Amma ümumilikdə beyləqanlıların məndən əsas tələbi onların layiqli vəkili olmaq, onları qanunverici orqanda layiqincə təmsil etməkdən ibarətdir. Mən də öz növbəmdə bu məsuliyyətli işin öhdəsindən gəlməyə çalışacağıma, dövlət başçısı İlham Əliyevin siyasi kursuna dəstək verəcəyimə söz verdim.

**- Deputat kimi fəaliyyət göstərəcəyiniz yaxın 5 il ərzində seçicilərinizlə necə ünsiyyət quracaqsınız?**

- Beyləqan sakinləri ilə işləmək üçün kifayət qədər planlarımız var. Yeni Azərbaycan Partiyası Beyləqan rayon təşkilatının binasında millət vəkili kimi mənim daimi nümayəndəliyim fəaliyyət göstərəcək. Bu, seçicilərimlə, ümumilikdə Beyləqan camaatı ilə intensiv ünsiyyət saxlamağımıza səbəb olacaq. Eyni zamanda, həftədə 1 dəfə, ən uzağı isə 10 gündə bir dəfə Beyləqan rayonuna səfərim planlaşdırılıb. Hər 3-4 aydan bir isə qəsəbə və kəndlərdə rayon sakinləri ilə görüşlər keçirməyi planlaşdırıram. Deputat mandatı alandan sonra yalnız Bakıda, Milli Məclisdə olmaq kimi bir niyyətim yoxdur. Paralel olaraq seçicilərimlə də görüşlərə gedəcəyəm. Necə ki, beyləqanlılar doğmalıq və böyük etimad nümayiş etdirib məni özlərinə millət vəkili seçiblər, mən də öz fəaliyyətimlə bu doğmalığı eyni qaydada onlara qarşı nümayiş etdirmək niyyətindəyəm. Bir sözlə, gənclik enerjimi, Azərbaycanda ictimai-siyasi fəaliyyətdə qazandığım bilikləri, təcrübəni, bütün imkan və əlaqələrimi Beyləqan rayonuna yönəltmək istəyirəm. Artıq bu istiqamətdə bir neçə böyük layihə üzərində işlərə də başlamışıq. Yaxın zamanlarda biz bunların şahidi olacağıq.

**- Millət vəkili olmaq, qanunvericilik təşəbbüsü ilə parlamentdə çıxış etmək, həmçinin Beyləqan rayon sakinlərinin şikayət və təkliflərini dinləmək, onların problemləri ilə maraqlanmaq Sizin vaxt və enerjinizin böyük hissəsini əlinizdən alacaq. Bu, ATGTİ-dəki fəaliyyətinizə necə təsir edəcək?**

- Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı seçkili orqandır. Yəqin ki, bu məsələyə də növbəti qurultayda baxılacaq. Amma qurultaya qədər millət vəkili olmaqla yanaşı, İttifaqa da sədrlik edəcəyəm.

**- Bəs bütövlükdə seçki prosesini necə qiymətləndirirsiniz?**

- Seçki prosesi çox yüksək təşkilatçılıqla, demokratik, şəffaf, obyektiv şəkildə keçdi. İnsanlar aktiv surətdə seçki məntəqələrinə gələrək, kənar təsir olmadan istədikləri namizədə səs verə bildilər. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda növbəti parlament seçkiləri tam qanunvericiliyə uyğun olaraq baş tutub. Lakin buna baxmayaraq, əfsuslar olsun ki, bu dəfə də seçki prosesindən öz maraqları naminə sui-istifadə etməyə cəhd göstərənlər oldu. Eyni zamanda, bəzi xarici siyasi nümayəndələr Azərbaycanda keçirilən seçkilərin nəticələrinə kölgə salmağa yönəlik qərəzli bəyanatlar səsləndirdilər. Biz həmin dairələrin belə münasibətini əvvəlki seçki proseslərində, eləcə də ölkəmizdə keçirilən mühüm beynəlxalq tədbirlər zamanı da görmüşük. Ona görə də qəti əminliklə demək olar ki, Azərbaycandakı seçkiləri müşahidə etməyən həmin qüvvələrin parlament seçkiləri barədə qeyri-obyektiv rəyləri əvvəlcədən hazırlanmış, yalnız seçki prosesinin sonunda açıqlanan qərəzli münasibət formasıdır. Azərbaycana qarşı çirkin kampaniyanın tərkib hissəsidir. Bunun isə bizim üçün heç bir əhəmiyyəti yoxdur. Azərbaycan üçün vacib olan Azərbaycan xalqının iradəsi, seçimidir. Azərbaycan seçicisi də iradəsini ortaya qoyaraq azad şəkildə öz millət vəkillərini seçib.

**Rufik İSMAYILOV**